**ELEKTRON NOTARİAT**

Bu gün ölkəmizin hərtərəfli inkişafına uyğun olaraq, Azərbaycan notariatı təkmilləşir və müasirləşir, notariat fəaliyyətinin səmərəliliyinin artırılması, vətəndaş məmnuniyyəti və əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılması istiqamətində mühüm tədbirlərin həyata keçirilməsi davam etdirilir.

2007-ci ildən etibarən respublikanın notariuslarını vahid şəbəkədə birləşdirən, yerinə yetirilmiş notariat hərəkətləri haqqında məlumaları arxivləşdirən və toplayan, notariuslar arasında real vaxt rejimində məlumat mübadiləsini təmin edən mərkəzləşdirilmiş "Notariat sənədlərinin elektron məlumat bankı" informasiya sistemi yaradılmış və istifadəyə verilmişdir.

Bu sistemin ilkin mexanizmi belə idi: notarius iş yerindən xüsusi proqram vasitəsilə iş günü ərzində həyata keçirilmiş notariat hərəkətləri barədə məlumatları məlumat sisteminə göndərirdi.

Bu proqramın ilkiin tətbiqi zamanı, notariat sənədinin mətni praktiki olaraq iki dəfə tərtib olunurdu: əvvəlcə kağız daşıyıcıda, daha sonra kağız daşıyıcıdan informasiya sisteminə köçürülürdü, hansıki bu prosesdə texniki səhvlər istisna deyildi.

Bu mexanizm notariat ofisinin iş həcmini iki dəfə artırırdı ki, bu da işçilərin yüksək iş yükünə və yorğunluğuna səbəb olurdu.

Buna görə də, dövlət elektron informasiya mənbəyi kimi müvafiq qaydada qeydiyyyata alınmış "Elektron notariat" avtomatlaşdırılmış sistemi yaradılmış və istifadəyə verilmişdir. Bu İnformasiya sisteminin fəaliyyətinin təşkili və inkişaf etdirilməsi Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsi və İnformasiya-kommunikasiya texnologiyaları idarəsi tərəfindən təmin edilmişdir.

Notariat hərəkətlərinin aparılması sahəsində yeni müasir texnologiyaların tətbiqi ilə notariat hərəkətlərinin elektron məlumat bazasının yaradılması –informasiya sistemi vasitəsilə fiziki və hüquqi şəxslərə daha çevik və keyfiyyətli hüquqi xidmətlərin göstərilməsinə, dövlət qurumları tərəfindən tələb edilən rəsmi sənəd və arayışların sayının azaldılmasına və bununla da həmin qurumlara müraciət edilməsi zərurətinin aradan qaldırılmasına xidmət etmişdir.

Bu sistemin üstünlüyü və yeniliyi ondan ibarətdir ki, bütün notariat hərəkətlərinin layihələri notarius tərəfindən tərtib olunur və bu sistemdə saxlanılır. Bu mexanizm notarial sənədin elektron və kağız formatda mətninin fərqlənməsini və mətndə olan texniki səhvləri aradan qaldırır.

Sistemdə qanuna uyğun olaraq bütün notariat hərəkətlərinin hazır formaları və mətnləri vardır. Lakin, bu, notariusun öz istəyinə uyğun notariat sənədini tərtib və düzəliş

etməsini istisna etmir. Yəni sistemdəki notariat sənədlərinin mətnləri yalnız notariusların işini asanlaşdırmaq, işini sürətləndirmək, məhsuldarlığı artırmaq və işin keyfiyyətini artırmaq üçün sadə şablonlardır, nümunələrdir.

Elektron notariat sistemi 1999-cu il tarixdə qəbul edilmiş “Notariat haqqında” Qanuna uyğun olaraq yaradılmış və daxilində bütün notariuslar və notariat hərəkətlərinin aparılması mexanizmi barədə məlumatlar vardır.

Sistemin imkanları:

- notariat hərəkətlərinin reyestrinin elektron formada aparılması və sənədlərə avtomatlaşdırılmış qaydada vahid reyestr nömrəsinin verilməsi;
- sənədlərin həqiqiliyinin real vaxt rejimində yoxlanılması və sənədlər haqqında məlumatların elektron formada alınması;
- notariat hərəkətlərinin layihələrinin yaradılması;
- " QR " və ya barkoddan istifadə edərək sənədlərin həqiqiliyini yoxlamaq;
- daşınmaz əmlakın özgəninkiləşdirilməsində verginin avtomatlaşdırılmış hesablanması;
- icra qeydləri aparmaq üçün zəruri olan məlumatların avtomatlaşdırılmış qəbulu, habelə icra qeydlərinin məhkəmə qərarlarının icrası orqanlarına verilməsi;
- notariat sənədlərinin məlumat bazasında ətraflı axtarışı;
- notariat sənədlərinin arxiv elektron nüsxələrinin bazasının yaradılması;
- statistik hesabatların hazırlanması və avtomatlaşdırılmış qaydada müvafiq orqanlara göndərilməsi;
- notariat hərəkətləri barədə məlumatların avtomatlaşdırılmış qaydada səlahiyyətli orqanlara ötürülməsi;
- notariusların fərdi elektron kabinetlərinin yaradılması;
- digər informasiya sistemləri ilə məlumat mübadiləsinin həyata keçirilməsi;
- inzibatçı və istifadəçilər arasında məlumat və sənəd dövriyyəsinin həyata keçirilməsi;
- video əlaqə vasitəsi ilə notariat hərəkətlərinin uzaqdan həyata keçirilməsi.

Bu günə qədər dövlət orqanlarının 8 informasiya sistemi, onların mənbələri və funksiyaları elektron notariatla birləşdirilmişdir. Bunlar:

1. Daxili İşlər Nazirliyi (şəxsiyyət vəsiqələri, pasportlar, nəqliyyat vasitələrinin texniki pasportları, sürücülük vəsiqələri və s.);
2. Vergilər Nazirliyi;
3. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;

4. Milli Depozit Mərkəzi;
5. Dövlət Mənzil Tikinti Agentliyi;
6. İcbari Sığorta Bürosu;
7. Əmlak Məsələləri Dövlət Komitəsi;
8. Dövlət Sərhəd Xidməti.

Bəlli olduğu kimi, tələb olunan əsas notariat hərəkətlərindən biri də daşınmaz əmlakın alqı-satqı müqaviləsinin rəsmiləşdirilməsidir. Bu müqavilələrin rəsmiləşdirilməsinin elektron notariat məlumat sistemində tətbiqindən əvvəl və sonrası barədə bir misal göstərək. Bir çox digər müqavilələrin rəsmiləşdirilməsində olduğu kimi, burada da lazımi sənədlərin və arayışların təqdim olunması tələb olunur. Əvvəllər vətəndaşlar sənədləri toplamaq üçün müxtəlif orqanlara müraciət etməli idilər, bu heç də az vaxt aparmırdı və bütün bunlara görə rüsum da ödəyirdilər.

Notariusa hansı sənədləri təqdim etmək lazım olduğunu nəzərdən keçirək.

- Texniki plan və kadastr pasportu,
- Hüquqların qeydiyyatı haqqında şəhadətnamə və ya Dövlət Reyestrindən Çıxarış,
- İcbari Sığorta Müqaviləsi,
- Əmlakın yüklü olub-olmaması barədə arayış,
- Ünvan üzrə birgə yaşayanlar barədə arayış,
- Etibarnamələr,
- Hüquqi şəxslər haqqında məlumat,
- Şəxsiyyəti təsdiq edən sənədlər,
- Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı barədə sənədlər və s.

Vətəndaşların lazımi sənədləri toplamaq üçün real vaxtı bəzən 20-30 günə çatırdı. Təqdim olunan sənədləri yoxlamaq və müqavilənin özünü tərtib etmək üçün notariusa ən azı 2 saat vaxt tələb olunurdu.

Ancaq, qeyd olunduğu kimi, elektron məlumat sisteminin tətbiqi bütün bu prosedurları sadələşdirdi və müddətləri azaltdı. Nəticədə, belə bir mürəkkəb və vacib müqavilənin tərtib edilməsi üçün vətəndaşlar yalnız notariat ofisinə müraciət edirlər və yuxarıda göstərilən sənədlər və arayışların əksəriyyəti digər qurumların informasiya mənbələrindən notariat sistemi vasitəsilə elektron formada əldə edilir.

Real vaxt rejimində elektron sistem inteqrasiya yolu ilə Daşınmaz Əmlakın Dövlət Reyestrinin elektron sistemindən çıxarışı, yüklülük barədə arayışı və kadastr məlumatlarını əldə edir. Bundan əlavə, elektron sistem şəxsiyyət vəsiqələri, ailə

vəziyyəti və mövcud ünvanda birlikdə yaşayan ailə üzvləri haqqında real vaxt rejimində məlumatları təqdim edir.

Əməliyyatda əgər hüquqi şəxslər iştirak edirsə, sistem həm də təsisçilər haqqında məlumatları yoxlamağa imkan verir. İcbari Sığorta Bürosu ilə inteqrasiya sığortanın mövcudluğunu və qüvvədə olmasını yoxlamağa və ya sığorta olmadıqda əmlakı real vaxt rejimində sığortalamağa imkan verir .

Hazırda misal göstərdiyimiz daşınmaz əmlakın alqı-satqı müqaviləsinin rəsmiləşdirilməsi üçün məlumatların əldə olunması, sənədlərin yoxlanılması və müqavilənin notarius tərəfindən təsdiqlənməsi üçün cəmi 20 dəqiqə vaxt tələb olunur.

Əsas məlumatları (müqavilənin iştirakçıları, əmlak haqqında məlumat, müqavilənin şərtləri və s.) daxil etdikdən sonra sistem özü müqavilənin mətnini hazırlayır və tərəflərin istəyi ilə müqaviləyə lazımi dəyişikliklər edilir. Mümkün məhkəmə çəkişmələrinin qarşısını almaq üçün iştirakçıların fotoşəkilləri çəkilir, onlar müqavilələrdə əks olunur və məlumat bazasında da saxlanılır. Sənədləri saxtalaşdırılmaqdan qorumaq üçün müqavilələr üzərində QR və barkodlar yerləşdirilir.

Daşınmaz əmlakın növü, yeri, sahəsi və vergi əmsalı barədə daxil edilmiş məlumatlar əsasında, əmlak özgəninkiləşdirilərkən tutulmalı olan verginin məbləği electron sistemdə avtomatlaşdırılmış rejimdə hesablanır və müqavilədə əks olunur.

Bundan əlavə, sistem real rejimdə elektron məlumatları Vergilər Nazirliyinə göndərir.

Müqavilə təsdiq edildikdən sonra, tərəflərin daşınmaz əmlak reyestrində hüquqlarının qeydiyyata alınması ilə bağlı istəklərindən asılı olaraq müvafiq Çıxarışın (hazırda electron) 1 gündən 20 günədək müddətdə qeydiyyata alınması üçün notarius müqaviləni elektron formada Dövlət Reyestri Xidmətinə göndərir.

Bundan sonra, Dövlət Reyestrindən alınmış elektron çıxarışların kağız dayışıcıda eyniləşdirilməsi aparılır və vətəndaşlara verilir.

Notariat xidmətlərinin ödənişləri məsələsinin həlli də həmişə prioritet məsələlərdən biri olmuşdur. Qanuna görə, əvvəllər notarius nağd pulu qəbul etməli və iki gün ərzində bank hesabına daxil etməli idi. Yaxud, vətəndaş banka gedib ödəməni özü edə bilərdi. Birinci halda, bu cür ödəniş korrupsiya hadisələrinə şərait yarada bilərdi, ikinci halda isə, vətəndaşların özləri üçün əlverişsiz idi və onların çox vaxtını alırdı. Bu məsələni də həll etmək üçün notariat ofislərinə elektron köşklər yerləşdirilmişdir ki, bunun vasitəsilə notariat xidmətlərini nağd və ya kredit kartı ilə ödəmək, həmçinin notariat və notariat hərəkətləri barədə məlumat ala bilmək mümkün olsun. Bu layihə özünü tamamilə doğrultdu və vətəndaşlar onun icrası və səmərəliliyindən razıdırlar.